UOT 902

FUAD HÜSEYNOV
AMEA-nın Lənkaran Regional Elmi Mərkəzinin elmi işçisi
Fuadhuseyn6161@gmail.com

ƏLİKÖMƏKTƏPƏ ABİDƏSİNİN SÜMÜKDƏN DÜZƏLDİLMİŞ ƏMƏK ALƏTLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/109/233-238

Məqalədə Azərbaycanın Cənub-Şərq bölgəsində arxeoloji tədqiqatlar zamanı aşkar olunmuş Əlikömək təpə eneolit yaşayış yeri sakinlərinin erkən əkinçilik mədəniyyəti dövründə yaratdıqları və təsərrüfat həyatında isifadə etdikləri maddi-mədəniyyət nümünələrinin bir hissəsi sayılan, iri və xırda buynuzlu heyvanların və eləcə də öküz sümüklərindən düzəldilmiş əmək alətlərindən bəhs olunmuşdur. Belə ki, yaşayış yerində əsasən iri və xırda buynuzlu heyvanların lülə və kürək sümüklərindən və xırda buynuzlu heyvanların lülə sümüklərindən, bəzən isə maral buynuzundan düzəldilmiş müxtəlif təyinatlı əmək alətləri aşkar olunaraq, elmi ictimaiyyətə tədqim olunmuşdur. Əlikömək təpənin sümük məmulatları əsasən bizlər, deşici və ya dəlici alətlər, qaşovvari bıçaqlar, şüyürləyicilər, toxalar və müxtəlif bəzək əşyalarından ibarət olmuşdur. Balıq toru toxunmaq üçün istifadə olunan alətlərin və öküzün kürək sümüyündən hazırlanmış biçin alətinin tapılması Əlikömək təpə yaşayış yerini həm Azərbaycanın, həm də Cənubi Qafqazın həmdövr abidələrindən, əmək alətlərinin müxtəlifliyinə və tipoloji xüsusiyyətlərinə görə fərqləndirmişdir.

Məqalədə Əlikömək təpədə aşkar olunan və sümükdən düzəldilmiş müxtəlif əmək alətləri və onların tipoloji xüsusiyyətləri haqqında məlumat verilmiş və həmçinin bu əmək alətləri Azərbaycanın və Cənubi Qafqazın diğər həmdövr abidələrində tapılan analoji əmək alətləri ilə qarşıqlı şəkildə xarekterizə olunmuşdur.

Açar sözlər: Biz, dəlici alət, qaşovvari bıçaq, şüyürləyici, biçin aləti, toxa, oraq, muncuq, sıyırğa.

Giriş. Görkəmli arxeoloq F.R.Mahmudovun rəhbərliyi ilə 1971-ci ildən başlayaraq Azərbaycanın Cənub-Şərqində yerləşən Muğan bölgəsində erkən əkinçilik mədəniyyəti dövrünə aid olan Əlikömək təpə eneolit yaşayış yerində arxeoloji tədqiqatlara başlanılmış və nəticədə müxtəlif maddi-mədəniyyət nümünələri aşkar olunmuşdur. Əldə olunan bu maddi-mədəniyyət nümunələrinin bir qrupunuda sümükdən düzəldilmiş müxtəlif təyinatlı sümük məmulatları təşkil edir.

Onlarda əsasən əkinçilik təsərrüfatında istifadə edilən əmək alətlərindən, dəri və gönün işlənməsində istifadə edilən müxtəlif təyinatlı alətlərdən ibarət olmuşdur. Təsərrüfatda və məişətdə geniş istifadə edilən bu əmək alətləri öyrəndiyimiz ərazidə neolit və eneolit dövrü abidələri olan Polutəpə, Paşatəpə, Əlikömək təpə, Alxantəpə və erken tunc dövrü abidəsi olan Mişarçay I dən də kifayət qədər əldə edilmişdir. Belə ki, Azərbaycanın və eləcədə Cənubi Qafqazın bütün abidələrindən tapılan və müxtəlif formalarda olan sümük məmulatları, bilavasitə iri buynuzlu heyvanların lülə və kürək sümüklərindən və xırda buynuzlu heyvanların lülə sümüklərindən bəzən isə maral buynuzundan hazırlanmışdır. Bu qədim yaşayış yeriləri içərisində isə Əlikömək təpə eneolit yaşayış yeri iri buynuzlu və xırda buynuzlu heyvanların lülə və kürək sümüklərindən və maral buynuzundan düzəldilmiş müxtəlif təyinatlı əmək alətlərinə və eləcədə at sümüklərinin tapılmasına görə daha üstün mövqe tutmuşdur.

Qeyd edek ki, yaşayış yerindən tapılmış sümük məmulatlarına başlıca olaraq bizlər (200-ə qədər) deşici və dəlici alətlər, qaşovvari bıçaqlar, şüyürləyicilər, toxalar, müxtəlif bəzək əşyaları, xüsusən də muncuqlar və sıyığalar daxildir [9, s.63].

Bizlərə demək olar ki abidənin bütün inşaat qatlarında təsədüf olunmuşdür. Onlar da əsasən qoyunun dirsək sümüklərindən düzəldilmişdir.Bu baxımdan belə bizlər yanlız öyrəndiyimiz yaşayış yeri üçün daha xareterik olmuşdur. Qeyd edək ki, Azərbaycanın diğər eneolit dövrü abidələrindən, xüsusən də Kültəpə [4, s.36-37], Qarğalartəpə, Töyrətəpə [16, s. 113] və Qarabağ düzənliyindəki Neolit abidəsi olan Lələtəpədən [6, s.88], Şomutəpə mədəniyyətinə aid edilən və Ağıstafa rayonu ərazsində yerləşən

Çəpiştəpə neolit yaşayış yerində [11, s.52] və eləcədə erkən tunc dövrü abidəsi olan Ərəbyengicədə [2, s.100] belə bizlər əldə edilmişdir.

Lələtəpədə bizlər xırda buynuzlu heyvanın sümüklərindən düzəldilmişdir. Ümümilikdə isə istər Qarabağ düzənliyindəki abidələrdən, istərsədə Azərbaycanın digər həmdövr abidələrindən əldə edilən bizlər əsasən iri buynuzlu və xırda buynuzlu heyvanların lülə sümüklərindən hazırlanmışdır. Həmçinin, məişətdə geniş istifadə edilən belə bizlər Leylatəpə mədəniyyətinə aid olan Böyük Kəsik və Qala yeri yaşayış məskənlərində də aşkar olunmuşdur [10, s.182].

Sonraki mərhələ olan erkən tunc dövründə belə bizlər Cənubi Qafqazın möhtəşəm abidələri olan Elar, Şenqivit, Babadərviş və Naxçıvanın Kültəpə abidələrindən də əldə edilmişdir. Əlikəməktəpə abidəsinin müxtəlif inşaat qatlarından yanlız maral buynuzundan hazırlanmış toxalar tapılmışdır (20-ə qədər) [9, s.63]. Toxaların üzərində deşiklər açılmışdır ki, buda həmin toxaların sap vasitəsi ilə ağac dəstəklərə bağlamaq üçün edilmişdir.Əkinçilik təsərrüfatı ilə bilavasitə bağlı olan, torpağı əkinə hazırlamaq üçün geniş istifadə edilən belə toxaların kifayət qədər tapılması yaşayış yerində əkinçiliyin eneolit dövründə insanların təsərrüfat həyatında əsas yerlərdən birini tutduğunu söyləməyə əsas vermişdir. Digər tərəfdən Əlikəməktəpədə insanların maral buynuzundan düzəldilmiş toxalara üstünlük verməsi çox güman ki, ətrafda bu heyvanların daha çox olması və buynuzdan düzəldilmiş toxanın daha möhkəm və istehsala daha əlverilişli olması ilə bağlı olmuşdur.

Əlimizdə dəqiq məlumat olmasa da ehtimal edə bilərik ki, Əlikəməktəpə sakinləri bəlkədə digər iri və xırda buynuzlu heyvanlar, eləcədə atı əhliləşdirdiyi kimi maralları da əhliləşdirmişlər. Maralların asanlıqla əhliləşdirilməsi fikirinə gəldikdə isə biz nümünə olaraq bu gündə Uzaq Şərqdə (Rusiya ərazisində) maralçılıq təsərüfatı ilə məşğul olan türksoylu xalqları göstərə bilərik. Bizim bu fikirə gəlməyimizin digər səbəbi isə əlbəttə ki, yaşayış yerində maral buynuzundan düzəldilmiş analoji əmək alətlərinin daha cox aşkar edilməsidir. Maral buynuzundan düzəldilmiş toxalar Naxçıvanın Kültəpə [5, s.23], Şomutəpə [5, s.26] Gürcustanın Arıxlı yaşayış yerində də [20, s.25} aşkar olunmuşdur. Onuda qeyed edək ki, bu yaşayış yerlərində maral buynuzundan düzəldilmiş toxalar, iri və xırda buynuzlu heyvanların sümüklərindən düzəldilmiş toxalar ilə bərabər tapılmışdır. Maral buynuzundan düzəldilmiş toxalar neolit abidəsi olan Göytəpədə [7, s.20] də aşkar edilmişdir.

Leylatəpə mədəniyyətinə aid edilən Qala yeri yaşayış məskənində isə maral buynuzundan düzəldilmiş əmək alətinə təsədüf olunmuşdur [13, s.79]. Onu hansı məqsədlə istifadə edilməsi dəqiq bilinməsədə ehtimal etmək olar ki, bu əmək alətindən kiçik həcimli əkinçilik zamanı istifadə edilmişdir. Muğanın neolit dövrü abidəsi olan Polutəpədə isə maral buynuzundan düzəldilmiş bir necə iş alətləri, bəzək əşyaları və ritual aşyalar da tapılmışdır. Muğanın digər eneolit dövrü abidəsi olan Alxantəpədə isə maral buynuzundan düzəldilmiş və əkinçilik təsərrüfatı ilə bağlı olan hər hansı əmək alətinə rast gəlinməmişdir.

Qeyd edək ki, Əlikəməktəpədə iri və xırda buynuzlu heyvanların sümüklərindən düzəldilmiş toxalara rast gelinməmişdir. Bu isə Əlikəməktəpə yaşayış yerini Azərbaycanın eləcədə Cənubi Qafqazın digər həmdövr abidələrindən daha çox fərqləndirir. Bundan başqa Əlikəməktəpə yaşayış yerində iri buynuzlu heyvanın qabırğalarından düzəldilmiş və əsasən balıq toru toxumaq üçün istifadə olunan alətlər, həmçinin qoyunun kürək sümüyündən düzəldilmiş küllü miqdarda qaşovvari bıçaqlar tapılmışdır [9, s.63].

Balıq toru toxumaq üçün istifadə olunan alətlərin tapılması və yaşayış yerinin çayin sahilində yerləşməsi Əlikəməktəpə sakinlərinin təsərrüfat fəaliyyətində balıqçılığın da mühim yer tutuduğunu deməyə əsas verir. Əlikəməktəpə abidəsində aşkar edilən və daha yaxşı hazırlanmış qaşovvari bıçaqlar Cənubi Qafqazın sümük məlumatını tipioloji cəhətdən daha da zənginləşdirmişdir. Marağlı cəhət ondan ibarətdir ki, Əlikəməktəpədən əldə edilən qaşovvari bıçaqlar Cənubi Türkmənistanın Neolit dövrünə aid Ceytun mədəniyyəti abidələrinin daha xarakterik əmək alətlərindən olmuşdur [18, s.39-43, s.93] Qeyd edək ki, hələ neolit dövrünün ortalarından başlayaraq Ceytun mədəniyyətinə aid olan abidələrdə qaşovvari bıçaqlar xırda buynuzlu heyvanların kürək sümüklərindən hazırlanmağa başlanmışdır. Analoji sümük alətləri Ön Asiyada-Şimali İraqda yalnız Xalat mədəniyyətinə aid olan II Yarımtəpə yaşayış yerindən tapılmışdır [19, s.193].

Əlikəməktəpədə aşkar edilən qaşovvari bıçaqların oxşar nümünələrinə Azərbaycanın digər həmdövr abidələrində və ondan sonraki mərhəllərə aid olan abidələrin heç birində rast gəlinməsə də, onla-

rın digər nümünələri və ya fərqli nümünələri Azərbaycanın erkən əkinçilik mədəniyyətinə aid olan Şomutəpə [11, s.52] abidəsində və Şomutəpə mədəniyyətinə aid olan Çəpiştəpə [11, s.52] yaşayış yerində və eləcə də Leylatəpə mədəniyyətinə aid olan Alxantəpə yaşayış yerində [1, s.66] aşkar olunmuşdur.

Əliköməktəpə abidəsindən öküzün kürəy sümüyündən hazırlanmış biçin aləti tapılmışdır. Bu alət hazırlanma formasına görə xüsusi maraq doğurur. Belə ki, bu biçin alətini əllə tutmaq üçün, kürəy sümüyünün baş tərəfinin təbii formasına toxunulmayaraq olduğu kimi saxlanılmış, gövdəsi isə oraq ağzının quruluşuna uyğun olaraq qövsvari düzəldilmişdir. Alətin ağız hissəsi cəp kərtmələr vasitəsi ilə diş-diş edilərək, biçmək üçün yararlı hala salınmışdır. Orağın kəsici ağız hissəsi iş zamanı yeyilmiş və parıltı almışdır. Alətin uzunluğu isə 40 smdır [9, s.63-64]. Əliköməktəpədən tapılan bu biçin aləti həm hazırlandığı materiala, həm də formasına görə bizə məlum olan biçin alətləri içərsində tamamilə yeni tip əmək alətidir. Analoji biçin alətinə nəinki Azərbaycanın və Qafqazın, ümümiyyətlə Avrasya ərazisinin erkən əkinçilik mədəniyyəti dövrünə və sonrak tarixi dövrlərinə aid olan abidələrinin heç birində rast gəlinməmişdir.

Əlbəttə, Əliköməktəpədən tapılan analoji biçin alətinin bənzər nümünəsinə qeyd etdiyimiz kimi digər həmdövr və ondan sonraki tarixi mərhələlərdə rast gəlinməsədə dənli bitkilərin biçini zamanı istifadə edilən müxtəlif formalı biçin alətlərinə və ya onların qalıqlarına tədqiq edilən bir necə həm dövr yaşayış məskənlərində rast gəlinmişdir. Biz buna nümünə olaraq Tovuz rayonu ərasində 2015-2016-ci illərin arxeoloji qazıntıları zamanı Göytəpə neolit yaşayış məskənində aşkar edilən e.ə. 5650-5500-ci illərə (e.ə. VI minillik) aid edilən Cənubi Qafqazada və Yaxın Şərqdə erkən əkinçilik mədəniyyətinin əsas göstericisi sayılan, heyvanın cənə sümüyünə ovsidian daşından qoparılmış kəsici qəlpələrin bitümla bərkilədilməsi yolu ilə düzəldilmiş, dəstəyi olan və təsərrüfat anbarının yanında aşkar olunan orağı göstərə bilərik [8, s.67]. Neolit abidəsi olan Şorsu yaşayış yerində [3, s.85] və Leylatəpə mədəniyyətinə aid olan Qala yeri abidəsində [13, s.79] də əkinçilik təsərrüfatı ilə bilavasitə bağlı olan, obsidian və çaxmaq daşından hazırlanmış müxtəlif oraq dişləri nümünələri aşkar olunmuşdur.

Qeyd edək ki, Muğan ərazisində Əliköməktəpə abidəsinin qonşuluğunda yerləşən Polutəpə və Alxantəpə yaşayış yerlərində əkinçilik təsərrüfatı ilə bağlı olan analoji biçin alətinə rast gəlinməmişdir. Bununla belə həm Polutəpə [15, s.83-84] həm də Alxantəpə [1, s.65] yaşayış yerlərində əkinçilik təsərrüfatının inkişafını göstərən müxtəlif əmək alətlərinə o cümlədən dən daşları, həvənglər, taxıl sürtgəcləri, vəl dişləri və oraq dişləri və.s aşkar olunmuşdur.

Kür-Araz mədəniyyəti abidəsi olan Mişarçay I də isə əsasən öküz və qoyunun sümükləri tapılmışdır. Maldarlığın və əkinçiliyin inkişafı ilə əlaqədər Azərbaycanın digər həmdövr abidələri olan Kültəpə, Baba-Dərviş, Şomutəpə, Qarğalartəpə və İlanlıtəpə və.s yaşayış yerlərindən müxtəlif sümük məmulatları, o cümlədən bizlər, iy başlıqları, iynə və.s əmək alətləri, eləcədə iri və xırda buynuzlu heyvanlara məxsus çoxlu sümük qalıqları əldə edilmişdir [5, s.19-31]. Son illərin tədqiqatlarının nəticəsi olaraq, aşkar edilmiş Lələtəpə Neolit məskənində [6, s.88], Leylatəpə mədəniyyətinə aid olan Leylatəpə, II Poylu, Böyük Kəsik, Qalayeri, yaşayış yerlərindən iri və xırda buynuzlu heyvanların sümüklərindən düzəldilmiş və adlarını yuxarda qeyd etdiyimiz müxtəlif təyinatlı əmək alətləri aşkar olunmuşdur [10, s.181-186].

Ümumiyyətlə, sadaladığımız bu əmək alətləri Əliköməktəpə abidəsini nəinki, Azərbaycan, eləcə də Cənubi Qafqazın həmdövr abidələri içərisində özünə məxsus yer tutduğunu göstərməklə yanaşı, onun sümük məmulatlarının tipoloji tərkibini daha da zənginləşdirmişdir. Azərbaycanın həmdövr abidələri içərisində ilk dəfə əhliləşdirilmiş atın sümükləri Əliköməktəpə qədim yaşayış məskənində tapılmışdır. E.ə. V minilliyin axırlarına aid edilən bu at sümüklərinin tapılması elm aləmi üçün çox əlamətdar bir hadisə olmuşdur. Bu tapıntı Azərbaycan ərazisində eləcədə bütün Qafqazda atın ilk dəfə Muğanda əhliləşdirildiyini, ondan minik və yardımcı təsərrüfatda köməkçi vasitəsə kimi istifadə edildiyini deməyə əsas vermişdir Qeyd edək ki, son illərin arxeoloji qazıntıları zamanı Əliköməktəpə abidəsindən 4 km şərq istiqamətində yerləşən Paşatəpə qədim yaşayış məskənində də əhliləşdirilmiş atın sümükləri tapılmışdır. Bu arxeoloji tapıntılar, birdaha bizə məlum olan bütün ev heyvanlarının artıq eneolit dövründə əhliləşdirildiyini təsdiqləyir.

Əliköməktəpə abidəsinin sümük məmulatlarının bir qismini də bəzək əşyaları təşkil edir. Bunlarda əsasən muncuqlar (boyunbağılar) və sıyırğalardan ibarətdir. Muncuqlar (boyunbağılar) dəniz ba-

lıqqulağından düzəldilmişdir. Təkcə I inşaat qatında olan bir çuxurdan 150 dən çox belə muncuq (boyunbağılar) dənələri tapılmışdır [21, s.12]. Əlikəməktəpədə aşkar olunan sıyırğalarda topa halında tapılmışdır. Onlar da əsasən vəhşi və gəmirici heyvanların köpəkdişlərindən düzəldilmişdir [16, s.119]. Həmçinin, burada bir mis, iki firuzə, əqiqdən düzəldilmiş və hər iki tərəfi deşilmiş muncuqlar və eləcə də qara daşdan düzəldilmiş bir iri muncuq tapılmışdır.

Bütün bu bəzək əşyalarının kolleksiyası Cənub və Cənub-qərbi Ön Asiyanın erkən əkinçilik abidələrindən tapılan bəzək əşyalarına uygundur. Belə ki, misdən, firuzədən, əqiqdən düzəldilmiş muncuqlar (boyunbağılar) və eləcədə heyvanların köpək dişlərindən düzəldilmiş sıyırğalar Mesopotamiyanın Xalat, Hassun və Hassundan öncəki mədəniyyətlərinə aid abidələrdən də əldə edilmişdir. Sümük məmulatlarından düzəldilmiş bəzək əşyaları Gəncə-Qazax düzənliyinin Baba-Dərviş, Şomutəpə abidələrindən, Qarabağ düzənliyinin Çalağantəpə abidəsindən və eləcədə Cənubi-Azərbaycanın Ağevlər yaşayış yerindən kifayət qədər əldə edilmişdir. Aşkar olunmuş bu bəzək əşyaları isə Əlikəməktəpə yaşayış məskəni daxil olmaqla Azərbaycanın digər həmdövr qədim yaşayış yerlərində qadınların dəblə bəzəndiyindən xəbər verir.



Şəkil 1.

Nəticə. Beləliklə, Əlikəməktəpə yaşayış məskənində aparılan arxeoloji qazıntılar Azərbaycanın erkən əkinçilik və maldarlıq dövrü mədəniyyətinə yeni və zəngin maddi-mədəniyyət nümünləri bəxş etmişdir. Burada aparılan tədqiqatların nəticəsi olaraq əldə edilən daş və sümükdən düzəldilmiş müxtəlif təyinatlı əmək alətləri və digər maddi-mədəniyyət nümünələri bizə Azərbaycanın Cənub-Şərq bölgəsinin bir hissəsi olan Muğanda erkən əkinçilik mədəniyyəti dövründə yerli və müstəqil bir mədəniyyətin mövcud olduğunu göstərmişdir. Həmçinin, Əlikəməktəpədə aparılan tədqiqatlar istər Mu-

ğanda və istərsə də Azərbaycanın digər eneolit dövrü yaşayış məskənlərində erkən əkinçilik, maldarlıq və eləcədə sənətkarlığın inkişaf mərhələlərini izləmək üçün böyük elmi əhəmiyyət kəsb etmişdir.

ƏDƏBİYYAT

1. Axundov T.İ. Alxantəpə yaşayış yeri , Leylatəpə ənənəsi. Bakı, 2021, 724 s.
2. Baxşəliyev V.B., Seyidov A.Q. Ərəbyengicədə 2013-cü ilin Arxeoloji araşdırmaları, AMEA, Arxeologiya və Etnoqrafiya institutu, Azərbaycanda Arxeoloji Qazıntılar, 2013-2014. Bakı, 2015, 100 s.
3. Baxşəliyev V.B. Şorsu neolit yaşayış yeri, AMEA, Arxeologiya və Etnoqrafiya institutu, Azərbaycanda Arxeoloji tədqiqatlar, 2013-2014. Bakı, 2015, 67 s.
4. Həbibullayev O.H. Kültəpədə Arxeoloji qazıntılar. Bakı, 1959, s.36-37. tablo II-IV.
5. Hüseynov M.M., İsmayılov Q.S., Quliyev N.M. Azərbaycanda Arxeoloji abidələri. Bakı, 1981, 97s.
6. Qarabağ: Maddi, mədəni və mənəvi irsimiz I kitab - Arxeoloji tədqiqatlar. Bakı: 2023,- 368 s.
7. Quliyev F.E., Hüseynov F., Almməmədov X., Hacızadə N. Göytəpə neolit dövrü yaşayış məskənində aparılan arxeoloji qazıntılar (Tovuz rayonu), AMEA, Arxeologiya və Etnoqrafiya institutu, Azərbaycanda Arxeoloji tədqiqatlar, 2008, Bakı, 2008, 134 s.
8. Quliyev F.E., Qasımov P.P., Ələkbərov V.Ə., Səlimbəyov Ş.A., Məmmədov Y.V. Göytəpə qədim yaşayış yerində arxeoloji tədqiqatlar, (Tavuz rayonu) AMEA, Arxeologiya və Etnoqrafiya institutu, Azərbaycanda Arxeoloji tədqiqatlar, 2015-2016. Bakı, 2017, 67 s.
9. Mahmudov F.R. Əlikəməktəpəsində arxeoloji qazıntıların ilkin yekunları. Daş dövrü və Azərbaycanın eneolit. Bakı, 1984, s.63.
10. Müseyibli Nəcəf. Leylatəpə mədəniyyət. Bakı, "Elm və təhsil", 2020, 576 s.
11. Müseyibli N.Ə., Ağalarzadə A.M., Axundova G.K. Şomutəpə mədəniyyətinə aid Çəpiştəpə yaşayış yerində Arxeoloji qazıntılar, AMEA, Arxeologiya və Etnoqrafiya institutu, Azərbaycanda Arxeoloji Qazıntılar, 2013-2014. Bakı, 2015, 52 s.
12. Müseyibli N.Ə. Leylatəpə mədəniyyət. Bakı, "Elm və təhsil", 2020, 576 s.
13. Müseyibli N.Ə., Ağalarzadə A.M., Axundova G.K., Qasımov A.A. Qalayerində 2015-2016-ci illərdə aparılmış tədqiqatlar (Qəbələ rayonu) AMEA, Arxeologiya və Etnoqrafiya institutu, Azərbaycanda Arxeoloji Qazıntılar, 2015-2016. Bakı, 2017, 79 s.
14. Ахундов Т.И., Махмудова В.А., Гасанова А.М., Рамазанлы Г.Х., Рахманои А.А. Археологические исследования 2015-2016 гг. Муганской неолит-энеолической экспедиции, AMEA, Arxeologiya və Etnoqrafiya institutu, Azərbaycanda Arxeoloji tədqiqatlar, 2015-2016. Bakı, 2017, 83-84 s.
15. Археология СССР, ТОМ-IV, с.119.
16. И.Г.Нариманов. Культура Древнейшего земледель ческо-скотоводческого населения Азербайджана (эпоха энеолита VI- IV тыс. до н.э.). Баку, Элм, 1987, 113 с.
17. Коробкова Г.Ф. Орудия труда и хозяйство неолитических племен средней Азии МИЛ СССР, № 158, Л., 1969, с.39-43, зок 9-11, Массон В.М. поселение Джейтун. Л., 1971, 593.
18. Коробкова Г.Ф. Применение метода микроанализа к изучению функций каменных и костяных орудий, МИЛ СССР, 1965, № 139, Археология и естественные науки, с.193.
19. Кушнарева К.Х., Удбинишвили Т.Н. Древние культуры Южного Кавказа Ленинград, 1970, с.25, şək.5, (13-14).
20. Махмудов Ф.Р., Нариманов И.Г. Раскопки холма Аликемектепеси В. кн: Археологические и этнографические изыскания в Азер байджане (1973г). Баку, 1974, с.12.

ФУАД ГУСЕЙНОВ
Научный сотрудник Ленкоранского Регионального Научного Центра НАНА

ОРУДИЯ ТРУДА ИЗ КОСТИ, НАЙДЕННЫЕ НА ПАМЯТНИКЕ АЛИКЁМЕКТЕПЕ

В статье рассматриваются орудия труда, изготовленные из костей крупного и мелкого рогатого скота, а также из костей быков, обнаруженные при археологических исследованиях на

энеолитическом поселении Аликёмектепе, расположенном на юго-востоке Азербайджана. Эти орудия труда являются частью материальной культуры, созданной жителями поселения в период раннего земледельческого общества и использовавшейся в их хозяйственной жизни. В поселении были найдены орудия, изготовленные преимущественно из трубчатых и лопаточных костей крупного и мелкого рогатого скота, а также иногда из рогов оленей. Все эти находки были представлены научной общественности. Среди костяных изделий Аликёмектепе выделяются шила, прокалывающие инструменты, ножи в форме скребков, заостренные инструменты, застёжки и различные украшения. Обнаружение орудий, использовавшихся для плетения рыболовных сетей, и режущего инструмента, изготовленного из лопаточной кости быка, отличает Аликёмектепе от других памятников того же периода на территории Азербайджана и Южного Кавказа разнообразием орудий труда и их типологическими особенностями.

В статье приводится информация о различных костяных орудиях труда, обнаруженных на Аликёмектепе, и их типологические характеристики. Также рассматривается их сопоставление с аналогичными орудиями, найденными на других памятниках той же эпохи в Азербайджане и Южном Кавказе.

Ключевые слова: шило, прокалывающий инструмент, нож в форме скребка, заострённый инструмент, серп, застёжка, бусина, скребок.

FUAD HUSEYNOV
Researcher of Lankaran Regional Scientific Center of ANAS

BONE TOOLS FROM THE ALIKOMEKTEPE ARCHAEOLOGICAL SITE

This article discusses bone tools made from the bones of large and small ruminants, as well as oxen, created and used by the inhabitants of the Alikomektepe Eneolithic settlement, which was discovered during archaeological research in the southeastern region of Azerbaijan. These tools are part of the material cultural heritage produced during the early agricultural period. Various functional tools were found, primarily crafted from the limb and shoulder bones of large and small ruminants, and occasionally from deer antlers. These discoveries have been presented to the scientific community. The bone artifacts from Alikomektepe include awls, piercing tools, knife-like scrapers, chisels, toggles, and various ornaments. The discovery of tools used for weaving fishing nets and a harvesting tool made from an ox shoulder bone sets the Alikomektepe settlement apart from other contemporary sites in both Azerbaijan and the South Caucasus in terms of the variety and typology of its tools.

The article provides information about the various bone tools discovered at Alikomektepe, describing their typological characteristics, and compares them with similar tools found at other contemporary sites in Azerbaijan and the South Caucasus.

Keywords: Awl, piercing tool, knife-like scraper, chisel, harvesting tool, toggle, sickle, bead, scraper.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 08 may 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 may 2025-ci il.
Rəyçilər: t.e.d. Əmrah Dadaşov, t.e.d. İsmayıl Məmmədov.